

**Ziyadxan Əliyev**

# “BƏDİİ GÜZGÜ”NÜN SƏRTLİYİ

## *Bəhruz bəy Kəngərlinin “Qaçqınlar” silsiləsi haqqında*

XX əsrin başlınğıcında yaradıcılığı ilə Azərbaycan təsviri sənət tarixini duyulası dərəcədə yeniləşdirən və zənginləşdirən Bəhruz bəy Kəngərlinin bədii irsində “Qaçqınlar” qrafik silsiləsi xüsusi yer tutur. Tarixi-bədii əhəmiyyəti çox yüksək olan bu əsərlər yüz il əvvəl yaradılsa da, sovet dönəmində onun mahiyyəti olduğu kimi ictimaiyyətə çatdırılmamış, sayı 30-a çatan əsərlərdə təsvir olunanların haradan? nə səbəbdən qaçqın düşdükləri qeyd olunmamışdır. Başqa sözlə desək, Qərbi Azərbaycandan - Ermənistandan Naxçıvana pənah gətirən bu qaçqınların azərbaycanlı olmaları vurğulanmamışdır. Tanınmış sənətşünaslardan birinin bu qaçqın portretlərini müəllifin daşnak və müsavatçıların əməllərinə etirazı kimi dəyərləndirməsi də bu gün onu oxuyanlarda acı gülüş doğurur, desək, yanılmarıq. Yalnız rəssamın anadan olmasının 120 illiyi ilə əlaqədar 2012-ci ildə işıq üzü görən son nəşrlərdə xalqımıza yönəli baş verən erməni təcavüzü pislənilmişdir...

Xalqımızın zəngin ənənələrə malik olan təsviri sənəti onun çoxəsrlik tarixi ilə bərabər təşəkkül tapmasına baxmayaraq, nədənsə müxtəlif tarixi hadisələrin axarında ölkənin həyatında yaşananların bədiiləşdirilməsində çox gecikmişdir. Etiraf edək ki, indiki müasir dövrdə belə çox vaxt sənətkarlarımız öz dövrünün aynası olmaları kimi vətənpərvərliyə köklənmiş yaradıcılıq vəzifəsinin icrasını unudurlar. Yalnız bu gün duyulası zaman distansiyasından bu unutqanlığın bütünlükdə şərəfli keçmişimizin real bədii-tarixi mənzərəsinin yaradılmasına mane olduğunu görə bilirik.

Azərbaycan rəssamlığı yalnız XX əsrin əvvəllərində Bəhruz bəy Kəngərlinin çəkdiyi “Qaçqınlar” adlı silsilə əsərləri ilə erməni təcavüzünün silinməz izlərini özündə yaşadan ifşaedici sənət nümunələri yaratmağa nail oldu. Rəssamın zamanında öz müasirlərini - qaçqın soydaşlarını əks etdirən silsilə portretlərinin təkzibolunmaz tarixi-bədii ittiham olduğu bu gün də danılmazdır. Bu yerdə bir daha deyək ki, az qala bir əsrə yaxın tarixi olan bu əsərlərdən qarşı tərəfin ittihamında demək olar ki, bədii-tarixi vasitə kimi istifadə olunmamışdır. Kimin ağlına gələrdi ki, Bəhruz bəyin ötən əsrin əvvəllərində çəkdiyi “Qaçqınlar” silsiləsini yüz ildən sonra bir daha - mənfur düşmən xislətini ifşa edən bədii fakt kimi xatırlamalı olacağıq. Unutqanlığımızla bələnmiş həmin rəsmləri əsrlərin qovşağında çəkilmiş ürəkağrıdan kino kadrları ilə, fotoşəkillərlə tutuşdursaq, tarixiləşmiş səhnələrlə qoşalaşdırsaq, kifayət qədər oxşar cəhətlər taparıq. Biz şübhə etmirik ki, vaxtı ilə Bəhruz bəy 1918-1921-ci illərdə Ermənistandakı dədə-baba yurdlarından qovulub Naxçıvana pənah gətirmiş qaçqın soydaşlarımızın portretlərini yaddaşımızın korşalmaması üçün işləmişdi. Bunları ona sifariş edən də, ondan satın alan da olmamışdı. Amma gənc rəssamımız böyük vətənpərvərlik nümunəsi göstərib başımıza gələnlərin bədii salnaməsini yaratmışdı. Əminik ki, rəssam Canfəda, Avşar və digər kəndlərdən, bölgələrdən olan qaçqınların tükürpədici zahiri görkəmini, gözlərindəki ümidsizlik notlarını əbədiləşdirməklə sanki bizə bunları unutmamağı vəsiyyət etmişdi. Əslində, 1918-1920-ci illərdə yaşanan acıların canlı salnaməsi olan bu portretlər danılmaz tarixi sənədə çevrilən, erməni təcavüzünə qarşı sənətkar ittihamı kimi səslənən və heç vaxt əhəmiyyətini itirməyəcək bir bədii irsdir, desək, həqiqəti söyləmiş olarıq. Təkcə elə bu silsiləyə görə vətənpərvərliyi danılmaz olan Bəhruz bəy Kəngərli yaradıcılığı hər cür təqdirə layiqdir...

“Qaçqınlar” silsiləsini otuza qədər əsər təşkil edir. Onların çoxu Azərbaycan Milli İncəsənət Muzeyində, bir hissəsi isə rəssamın Naxçıvandakı muzeyində qorunur. Bəhruz bəy bu portretləri sulu boya ilə çəkmişdir. Sulu boya rəssamın sevimli texniki vasitələrindən olsa da, ehtimal etmək olar ki, o, onsuz da dərd-sərə bələnmiş ovqatda olan insanları vaxtını çox almaq istəməmiş, çox qısa müddətdə onların real görüntülərini yaratmağa çalışmışdır. Rəssamın bu portretlərin hər birinə zaman baxımından az vaxt sərf etsə də, bu, həmin əsərlərin zamanların ən çətin sınaqlarından çıxıb, bu gün ifşaedici ittiham qaynağına çevrilməsini şərtləndirə bilmişdir...



**Bəhruz bəy Kəngərli**

Qaçqın taleyini yazmağa məhkum olan soydaşlarımıza həsr olunmuş bu portretlərin hər biri faciəvi - dramatik ruhuna görə bənzərsizdir, desək, yanılmarıq. Rəssam 1919-cu ildən yaradıcılıq axtarışlarını qaçqınların taleyinə yönəltmişdir. Bəlkə də o, bu portretlər silsiləsini ömrünün axırına qədər çəkəcəyini düşünməmişdi. Amma iş elə gətirdi ki, gənc rəssam Tanrı tərəfindən ona ayrılmış ömür payının son üç ilini missiyasına müvafiq qaçqın taleyini bədiiləşdirməyə, milli tariximizin ən ağrılı səhifələrindən birini əbədiləşdirməyə həsr etdi. Özünün maddi cəhətdən ehtiyacı olsa da, o, qaçqın uşaqları ya evlərinə, ya da emalatxanasına gətirər, onları yedizdirər, pal-paltar verər və sonra da onların şəkillərini çəkərdi...

“Qaçqın qadın” (1919), “Əyləşmiş qaçqın oğlan” (1920), “Yaylıqlı qız” (1920), “Qaçqın İmran çanta ilə” (1921), “Qaçqın oğlanın portreti” (1921), “Gənc qadının portreti” (1921) və s. portretlərdə də rəssam gerçəkçi bədii vasitələrlə Naxçıvanda rastlaşdığı qaçqın uşaqların yaddaqalan obrazlarını yaratmağa nail olmuşdur.

“Gənc qızın portreti” (1920), “Əyləşmiş qadın” (1920), “Ayaqyalın qadın” (1920). “İki qadın fiquru” (1920), “İki qaçqın qız” (1920) və “Yaycı kəndindən qaçqın oğlan” (1921) əsərlərində isə Bəhruz bəy kompozisiyaların formatını bilərəkdən dəyişdirmişdir. Belə ki, əgər bir qədər yuxarıda adlarını çəkdiyimiz və qısa şərhini verdiyimiz portretlərdə obrazlar daha yaxından görüntüyə alınmışdılarsa, indi haqqında söz açmaq istədiyimiz əsərlərdə isə qaçqın yeniyetmələr bütöv - ayaqdan başa kimi təsvir olunublar.

Rəssamın iri planda təqdim etdiyi qaçqın portretlərində də onun insan psixologiyasına nüfuz etmə bacarığına malik olduğunu görmək mümkündür. Bu mənada onun “Qaçqın oğlan” (1920), “Avşar kəndindən qaçqın qız Cümsün” (1921), “Cavan oğlan” (1921), “Qaçqın qız” (1921), “Canfədalı kəndindən qaçqın oğlan” (1920),”Cavan oğlanın portreti” (1920), “Qırmızı yaylıqlı qız” (1920) və digər portretlərinin adını çəkmək olar.

Bəhruz bəy Kəngərlinin “Qaçqınlar arabada” (1921) əsərində isə yurd-yuvasını itirmiş soydaşlarımızın Naxçıvana gəlişi təsvir olunub. Mənzərə ilə əlaqəli təqdim olunmuş motiv cəlbedici və yaddaqalandır.

Sonda deyək ki, cəmisi 30 il ömür sürən və yaradıcılıq cəsarəti çoxlarına nümunə ola biləcək Bəhruz bəy Kəngərlinin “Qaçqınlar” silsiləsi əks olunduğu “bədii güzgü”nün sərtliyinə görə bənzərsizdirlər. Həm də tarixiliyi danılmaz olan bu çoxsaylı əsərlərin xalqımızın tuş gəldiyi faciələri bədii tutumda gələcəyə daşıya biləcək irs kimi də qiymətlidirlər. Qənaətimizcə, onlardan bu günün özündə belə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında əyani təsirli vasitə kimi istifadə oluna bilər.



Oturmuş qaçqın oğlan



Qaçqınlar arabada



Qırmızı yaylıqlı qız



Qaçqın oğlan



Qaçqın qız